**AZƏRBAYCAN RESPUBLİKASI**
**NAXÇIVAN MUXTAR RESPUBLİKASI**
**NAZİRLƏR KABİNETİ**

# Q Ə R A R

**“Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə”nin təsdiqi və Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2023-cü il 29 dekabr tarixli 225-VI FR nömrəli Fərmanının icrası ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə**

“Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə”nin təsdiqi və Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2023-cü il 29 dekabr tarixli 225-VI FR nömrəli Fərmanının 11.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Ətrafında 200 metr radius çərçivəsində yığıncaqların, mitinqlərin, nümayişlərin və küçə yürüşlərinin keçirilməsi qadağan edilə bilən mərkəzi, rayon və şəhər icra hakimiyyəti orqanlarının yerləşdiyi binaların siyahısı”nın təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2008-ci il 7 oktyabr tarixli 88 nömrəli Qərarında aşağıdakı dəyişikliklər edilsin:

1.1. adından və 1-ci hissəsindən “, rayon və şəhər” sözləri çıxarılsın;

1.2. həmin Qərarla təsdiq edilmiş “Ətrafında 200 metr radius çərçivəsində yığıncaqların, mitinqlərin, nümayişlərin və küçə yürüşlərinin keçirilməsi qadağan edilə bilən mərkəzi, rayon və şəhər icra hakimiyyəti orqanlarının yerləşdiyi binaların siyahısı” aşağıdakı redaksiyada verilsin:

**“Ətrafında 200 metr radius çərçivəsində yığıncaqların, mitinqlərin, nümayişlərin və küçə yürüşlərinin keçirilməsi qadağan edilə bilən mərkəzi icra hakimiyyəti orqanlarının yerləşdiyi binaların**

**S İ Y A H I S I**

Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin inzibati binası

Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin inzibati binası

Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin inzibati binası

Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin inzibati binası

Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin inzibati binası”.

2. “Bir sıra mərkəzi icra hakimiyyəti orqanlarının strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısının təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2010-cu il 16 avqust tarixli 76 nömrəli Qərarında aşağıdakı dəyişikliklər edilsin:

2.1. 4-cü hissə ləğv edilsin;

2.2. 6-cı hissədən “, Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsi” sözləri çıxarılsın.

3. “Naxçıvan Muxtar Respublikasının yanacaqdoldurma məntəqələrində nəzarət-kassa aparatlarının tətbiqi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2011-ci il 15 iyul tarixli 70 nömrəli Qərarının 3-cü hissəsində “Naxçıvan Muxtar Respublikasının Vergilər Nazirliyi” sözləri “Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti” sözləri ilə əvəz edilsin.

4. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2011-ci il 25 avqust tarixli 82 nömrəli Qərarı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti və məhkəmə orqanlarının aparatları (hərbi qurumlar, hüquq mühafizə və prokurorluq orqanları, rayon (şəhər) məhkəmələri istisna olmaqla), mərkəzi icra hakimiyyəti orqanlarının yerli bölmələri, onların yanında, tabeliyində olan orqanlar, mərkəzi icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin, dövlət xidmətlərinin aparatları və onların yerli bölmələri üçün xidməti minik avtomobillərinin say həddi (limiti)” cədvəlində aşağıdakı dəyişikliklər edilsin:

4.1. 14-cü hissənin “Orqanın adı” sütununda “Naxçıvan Muxtar Respublikasının Dövlət Vergi Xidməti” sözləri “Naxçıvan Muxtar

Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti” sözləri ilə əvəz edilsin;

4.2. 15-ci hissənin “Orqanın adı” sütununda “Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidməti” sözləri “Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti” sözləri ilə əvəz edilsin;

4.3. 16-cı hissənin “Orqanın adı” sütununda “Naxçıvan Muxtar Respublikasının Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti” sözləri “Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti” sözləri ilə əvəz edilsin.

5. “Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısının təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2014-cü il 29 may tarixli 49 nömrəli Qərarının 1-ci hissəsi ləğv edilsin.

6. “Naxçıvan Muxtar Respublikasında müsadirə edilmiş, sahibsiz qalmış, vərəsəlik hüququ əsasında dövlət mülkiyyətinə keçən əmlakın və dəfinələrin uçotu, qiymətləndirilməsi, saxlanılması, istifadəsi və satışı barədə Əsasnamə”nin təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2016-cı il 18 iyul tarixli 71 nömrəli Qərarında aşağıdakı dəyişikliklər edilsin:

6.1. 3-cü hissədə “Naxçıvan Muxtar Respublikasının Hərracların Təşkili üzrə Auksion Mərkəzi” sözləri “Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin tabeliyində Hərracların Təşkili Mərkəzi” sözləri ilə, “Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi” sözləri “Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti” sözləri ilə əvəz edilsin;

6.2. həmin Qərarla təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasında müsadirə edilmiş, sahibsiz qalmış, vərəsəlik hüququ əsasında dövlət mülkiyyətinə keçən əmlakın və dəfinələrin uçotu, qiymətləndirilməsi, saxlanılması, istifadəsi və satışı barədə Əsasnamə”də aşağıdakı dəyişikliklər edilsin:

6.2.1. 2.1-ci bəndinin beşinci abzasında “Naxçıvan Muxtar Respublikasının Vergilər Nazirliyi” sözləri “Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti” sözləri ilə əvəz edilsin və həmin abzasdan “və “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyası” sözləri çıxarılsın;

6.2.2. 3.1.1-ci yarımbənddə “Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi” sözləri “Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti (bundan sonra – Əmlak Məsələləri Dövlət Xidməti)” sözləri ilə, “Mədəniyyət və Turizm Nazirliyinin” sözləri “Mədəniyyət Nazirliyinin” sözləri ilə əvəz edilsin;

6.2.3. 3.1.3-cü yarımbənddə “Dini Qurumlarla İş üzrə İdarəsinə” sözləri “Dini Qurumlarla İş üzrə Dövlət Agentliyinə” sözləri ilə əvəz edilsin;

6.2.4. 3.1.9-cu yarımbəndin birinci və dördüncü cümlələrində, 3.1.10-cu yarımbənddə “Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi” sözləri “Əmlak Məsələləri Dövlət Xidməti” sözləri ilə əvəz edilsin;

6.2.5. 3.1.10.1-ci yarımbənddə “Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi” sözləri “Əmlak Məsələləri Dövlət Xidmətinin tabeliyində Hərracların Təşkili Mərkəzi” sözləri ilə əvəz edilsin;

6.2.6. 3.1.10.4-cü yarımbənddə “Naxçıvan Muxtar Respublikasının Vergilər Nazirliyi” sözləri “Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti” sözləri ilə əvəz edilsin;

6.2.7. 3.1.10.5-ci yarımbənd ləğv edilsin;

6.2.8. 3.1.13-cü yarımbənddə “Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyinə” sözləri “Əmlak Məsələləri Dövlət Xidmətinə sözləri ilə əvəz edilsin.

7. “Lisenziya blanklarının və əlavələrinin hazırlanmasına sifarişin verilməsi, onların bölgüsünün həyata keçirilməsi, blanklardan istifadənin uçotunun və hesabatının aparılması Qaydası”nın və lisenziya, ümumi lisenziya, xüsusi lisenziya blanklarının və əlavələrinin formalarının təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2016-cı il 3 sentyabr tarixli 87 nömrəli Qərarında aşağıdakı dəyişikliklər edilsin:

7.1. adından “və lisenziya, ümumi lisenziya, xüsusi lisenziya blanklarının və əlavələrinin formalarının” sözləri çıxarılsın;

7.2. 2 – 8-ci hissələr ləğv edilsin.

8. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2018-ci il 25 yanvar tarixli 17 nömrəli Qərarı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasında sığortaolunanların və sığortaedənlərin işsizlikdən sığorta üzrə sığortaçıda qeydiyyatı Qaydası”nın 2.1-ci bəndində “Naxçıvan Muxtar Respublikasının Vergilər Nazirliyindən” sözləri “Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətindən” sözləri ilə əvəz edilsin.

9. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2018-ci il 15 mart tarixli 52 nömrəli Qərarı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasında müəssisə və təşkilatların, habelə sahibkarlıqla məşğul olan fiziki şəxslərin iş xüsusiyyətlərinə uyğun olaraq ciddi hesabat blanklarının tərtibi və tətbiqi Qaydaları”nın 3.4-cü, 3.6-cı, 3.7-ci, 3.8-ci və 3.10-cu bəndlərində ismin müvafiq hallarında “Naxçıvan Muxtar Respublikasının Vergilər Nazirliyi” sözləri ismin müvafiq hallarında “Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti” sözləri ilə əvəz edilsin.

10. “Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin ştat cədvəli”nin təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2020-ci il 23 iyun tarixli 111 nömrəli Qərarının 1-ci hissəsi ləğv edilsin.

11. “Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin ştat cədvəli”nin təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2020-ci il 23 iyun tarixli 113 nömrəli Qərarının 1-ci hissəsi ləğv edilsin.

12. “Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin kollegiyasının tərkibinin təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 iyun tarixli 124 nömrəli Qərarının 1-ci hissəsi ləğv edilsin.

13. “Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin kollegiyasının tərkibinin təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 iyun tarixli 125 nömrəli Qərarının 1-ci hissəsi ləğv edilsin.

14. “Ölçmələrin vəhdətinin təmin edilməsi ilə bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinin 2020-ci il 20 oktyabr tarixli 178 nömrəli Qərarının 1 - 11-ci hissələri ləğv edilsin.

15. “Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidməti tərəfindən daşınmaz əmlakın və torpaq sahələrinin kadastrı, qeydiyyatı və texniki invertarlaşdırılması ilə bağlı göstərilən xidmətlərin tarifləri”nin təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2021-ci il 7 yanvar tarixli 4 nömrəli Qərarının 1-ci hissəsi ləğv edilsin.

16. “Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin ştat cədvəli”nin təsdiq edilməsi haqqında” Naxçıvan

Muxtar Respublikası Nazirlər Kabinetinin 2021-ci il 19 mart tarixli 65 nömrəli Qərarının 1-ci hissəsi ləğv edilsin.

17. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2021-ci il 7 aprel tarixli 89 nömrəli Qərarı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasında uyğunluq sertifikatının forması, uyğunluq nişanından istifadə və verilməsi Qaydaları”nın 1.2.1-ci bəndində “Naxçıvan Muxtar Respublikasının Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti” sözləri “Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti” sözləri ilə əvəz edilsin.

18. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2021-ci il 30 noyabr tarixli 245 nömrəli Qərarı ilə təsdiq edilmiş “Naxçıvan Xalça və İplik İstehsalı Müəssisəsi” Məhdud Məsuliyyətli Cəmiyyətinin Nizamnaməsi”ndə aşağıdakı dəyişikliklər edilsin:

18.1. 1.3-cü bənddə “digər normativ hüquqi aktları” sözləri “Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin hüquqi aktlarını” sözləri ilə əvəz edilsin;

18.2. 4.5-ci bənddə “Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin” sözləri “Cəmiyyətin direktorunun” sözləri ilə, “Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti” sözləri “Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi” sözləri ilə əvəz edilsin.

19. “Naxçıvan Muxtar Respublikasında avtomobil nəqliyyatı ilə müntəzəm şəhərlərarası (rayonlararası) və şəhərdaxili (rayondaxili), o cümlədən şəhərətrafı və qəsəbələrarası sərnişin daşımalarını yerinə yetirən daşıyıcılara istifadə olunan dizel yanacağına görə subsidiya verilməsinin müvəqqəti Qaydası”nın təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2021-ci il 23 dekabr tarixli 266 nömrəli Qərarında aşağıdakı dəyişikliklər edilsin:

19.1. adında “verilməsinin müvəqqəti Qaydası”nın təsdiq edilməsi” sözləri “verilməsi üçün tədbirlər görülməsi” sözləri ilə əvəz edilsin;

19.2. 1-ci hissə ləğv edilsin;

19.3. 2-ci hissədə “Naxçıvan Muxtar Respublikasının Dövlət Vergi Xidməti” sözləri “Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti” sözləri ilə əvəz edilsin;

19.4. 2.2-ci bənddə “bu Qərarın 1-ci hissəsi ilə təsdiq edilmiş qaydaya” sözləri “Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 1 dekabr tarixli 379 nömrəli Qərarı ilə təsdiq edilmiş “Avtomobil nəqliyyatı ilə müntəzəm

şəhərlərarası (rayonlararası) və şəhərdaxili (rayondaxili), o cümlədən şəhərətrafı və qəsəbələrarası sərnişin daşımalarını yerinə yetirən daşıyıcılara istifadə olunan dizel yanacağına görə subsidiya verilməsinin müvəqqəti Qaydası"na" sözləri ilə əvəz edilsin;

19.5. 3-cü hissədə "Naxçıvan Muxtar Respublikasının Dövlət Nəqliyyat Xidməti" sözləri "Naxçıvan Muxtar Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi" sözləri ilə əvəz edilsin.

20. "Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin tabeliyində "Yerquruluşu, Geodeziya və Kartoqrafiya" Məhdud Məsuliyyətli Cəmiyyətinin yaradılması haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2022-ci il 5 aprel tarixli 92 nömrəli Qərarının 2-ci və 3-cü hissələri ləğv edilsin.

21. "Bir sıra təşkilatların, publik hüquqi şəxslərin və səhmlərinin (paylarının) nəzarət zərfi dövlətə məxsus olan bəzi hüquqi şəxslərin ştat cədvəllərinin təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2022-ci il 7 fevral tarixli 29 nömrəli Qərarının 9-cu və 13-cü hissələri ləğv edilsin.

22. "Naxçıvan Muxtar Respublikasının Dövlət İmtahan Mərkəzi" və "Naxçıvan Muxtar Respublikası Sahibkarlığın İnkişafı Fondu" publik hüquqi şəxslərin ştat cədvəllərinin təsdiq edilməsi barədə" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2022-ci il 23 fevral tarixli 42 nömrəli Qərarının 2-ci hissəsi ləğv edilsin.

23. "Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeliyində "Yaşıllaşdırma və Landşaft Quruluşu" Məhdud Məsuliyyətli Cəmiyyətinin təsis edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2023-cü il 27 noyabr tarixli 143 nömrəli Qərarının 5-ci hissəsində "Naxçıvan Muxtar Respublikasının Dövlət Vergi Xidməti" sözləri "Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti" sözləri ilə əvəz edilsin.

24. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri** **Səbuhi Məmmədov**

Naxçıvan şəhəri, " 23 " fevral 2024-cü il

№ 16